**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№274/1** **11 mart 2016-cı il**

**Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sisteminin tətbiqi barədə**

"Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər)" II "Auditor fəaliyyətinin idarə olunması, tənzimlənməsi və auditin institusional potensialının gücləndirilməsi" bölməsinin 3-cü "Auditor xidməti sahəsində qadağaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması" bəndinə əsasən hazırlanmış "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sisteminin tətbiqi barədə" Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramovun məruzəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2015-ci il 25 noyabr tarixli 269/1 saylı qərarı ilə təsdiq edilmiş "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi" 2016-cı il mart ayının 15-dən tətbiq edilsin;
2. Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sisteminin 9-cu "Müəyyən olunmuş qaydada üzvlük haqlarını ödəmədikdə" bəndində nəzərdə tutulmuş "hər gecikdirilmiş gün üçün üzvlük haqqının 0,05 %-i miqdarında peniyanın ödənilməsi"nin tətbiqi 2 (iki) il müddətinə dayandırılsın.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**